

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 241 (21.902)

20 dekabr 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olunub, Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən Həştərxan vilayəti ilə əməkdaşlığın əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyi bildirilib.

Azərbaycan ilə Rusiya arasında tərəfdaşlıq münasibətlərinin, xüsusən ticari, iqtisadi və regional əməkdaşlığın genişləndirilməsi işində Həştərxan vilayətinin rolunu vurğulayan Prezident İlham Əliyev bununla bağlı qubernator Aleksandr Jilkinə təşəkkürünü bildirib.

Görüşdə 2018-ci ildə Həştərxan vilayəti tərəfindən Xəzər dənizində səyahət gəmilərinin buraxılması və bunun Xəzər hövzəsi ölkələri arasında turizmin inkişafına töhfə verəcəyi qeyd olunub, Həştərxan vilayəti ilə Azərbaycan arasında nəqliyyat-logistika əlaqələrinin genişləndirilməsi, Azərbaycanın kənd təsərrüfatı məhsullarının vilayət vasitəsilə Rusiya bazarlarına çıxarılması sahəsində birgə tədbirlər haqqında danışılıb.

Söhbət zamanı bu gün Bakıda keçiriləcək Həştərxan Biznes Mərkəzinin təməlqoyma mərasiminin önəmi vurğulanıb, turizm, səhiyyə, kənd təsərrüfatı, təhsil, texnologiya sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin əsasında Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi yaradılsın.
2. "Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
3. "Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).
4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 dekabr 2017-ci il*

## V.S.Babayevin Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüqar Səyyad oğlu Babayev Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 dekabr 2017-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İran İslam Respublikasına rəsmi səfər edib





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dekabrın 17-də İran İslam Respublikasına rəsmi səfər edib.

Tehranın Mehrabad Beynəlxalq Hava Limanında Ali Məclisin Sədrini İran-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri Salman Xodadadi, İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin Baş İdarəsinin rəisi Müqəddim Bağeri, Azərbaycan Respublikasının İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov və İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom qarşıladılar.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zəriflə görüşdü.

Məhəmməd Cavad Zərif Ali Məclis Sədrini salamladı və onu İranda görməkdən məmnunluğunu bildirdi.

Ali Məclisin Sədri İran İslam Respublikasına səfərə dəvətə görə xarici işlər nazirinə minnətdarlıq etmiş və qeyd etmişdir ki, hazırda hər iki ölkə Prezidentlərinin səyi ilə ikitərəfli əlaqələr uğurla inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi və Qərbi Azərbaycan vilayətləri arasında enerji, təhsil, turizm, ticarət və nəqliyyat sahəsində səmərəli əməkdaşlıq vardır. Naxçıvan Dövlət Universitetində iranlı tələbələr təhsil alırlar. Culfa Gömrük Keçid Məntəqəsinin fasiləsiz fəaliyyət göstərməsi, Şahtaxtı-Poldəşt Gömrük Keçid Məntəqəsinin isə iş saatının artırılması tranzit əlaqələrinin inkişafına və gediş-gəlişin artmasına səbəb olub.

Ali Məclisin Sədri Naxçıvanın təbii qaz təchizatında İranın rolundan danışıb, bütün bunların ikitərəfli əlaqələrin daha da möhkəmlənməsinə öz töhfəsini verdiyini diqqətə çatdırıb.

İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif bildirib ki, İran İslam Respublikası Azərbaycanla bütün sahələrdə əlaqələri daha da inkişaf etdirməyin tərəfdarıdır. Əməkdaşlığın mövcud vəziyyəti bunu bir daha təsdiq edir. İranın Şərqi və Qərbi Azərbaycan vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasındakı mövcud əlaqələr münasibətlərin genişləndirilməsi üçün geniş imkanlar açır. İkitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafında səylərin artırılması vacib amildir.

Görüşdə əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb, qarşılıqlı fikir mübadiləsi aparılıb.



* * *

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İranın "Fərab" şirkətinin rəhbərini və nümayəndələrini qəbul edib. Söhbət zamanı Ordubad-Marazad Su Elektrik Stansiyasının tikintisi ilə bağlı məsələlər müzakirə olunub.

Ardı 2-ci səhifədə

# İran İslam Respublikası İslami Şura Məclisinin sədri ilə görüş

Dekabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikası İslami Şura Məclisinin sədri Əli Laricani ilə görüşüb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov deyib ki, Azərbaycan və İran xalqlarını tarix, mədəniyyət və ortaq dəyərlər birləşdirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də bəyan etdiyi kimi, İran Azərbaycan üçün dost və qardaş ölkədir. Ali Məclisin Sədri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi İrana səfərlərini və əlaqələrin yaradılmasındakı xidmətlərini xatırladıb, ötən dövrdə əlaqələrin müxtəlif sahələrdə inkişaf etdirildiyini bildirib, iqtisadi-ticarət əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd edib.

Əlaqələrin inkişafında hər iki ölkə parlamentlərinin dostluq qruplarının rolunun mühüm əhəmiyyətə malik olduğunu bildirən Ali Məclisin Sədri, Azərbaycan-İran Parlamentlərarası Dostluq Qrupunun həmsədri Vasif Talıbov İran İslami Şura Məclisinin sədri Əli Laricanini Naxçıvan Muxtar Respublikasına səfərə dəvət edib.

Əli Laricani Naxçıvan Muxtar Respublikasına səfərə dəvətə görə minnətdarlıq edərək deyib ki, Azərbaycan və İran arasındakı əlaqələrin qədim tarixi və dərin kökləri vardır. İran İslam Respublikası Azərbaycan Respublikası ilə dostluq əlaqələrinə sadiqdir. İki ölkənin mədəni yaxınlığı var və bu, iqtisadi-siyasi əlaqələrin də inkişaf etdirilməsi üçün möhkəm təməldir. Əlaqələrin inkişafında parlamentlərarası dostluq qruplarının fəaliyyəti xüsusilə qeyd edilməlidir. Naxçıvan Muxtar Respublikası ilə İran arasında turizm, iqtisadi-ticarət və qarşılıqlı investisiya qoyuluşu sahəsində imkanlar genişdir.

## Azərbaycan-İran Parlamentlərarası Dostluq qruplarının fəaliyyəti gücləndirilir

Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun həmsədri Salman Xodadadi ilə görüşüb.

Salman Xodadadi Azərbaycana səfəri zamanı dostluq qrupunun üzvləri ilə keçirilən görüşləri xatırladıb, qarşılıqlı əlaqələrin inkişafında birgə səylərin və fikir mübadiləsinin aparılmasının faydalı olduğunu qeyd edib.

Ali Məclisin Sədri dostluq qrupunun fəaliyyətini ölkələrimiz arasındakı əlaqələrin inkişafında vacib amil kimi dəyərləndirib.



# Azərbaycan-İran iqtisadi əlaqələri davamlı inkişaf tempinə əsaslanır



Səfərin ikinci günü – dekabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının iqtisadi işlər və maliyyə naziri, hökumətlərarası komissiyanın həmsədri Məsud Kərbasian ilə görüşüb.

Məsud Kərbasian bildirib ki, İran İslam Respublikası Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqələrinin inkişafında qətiyyətli və ciddidir. Azərbaycan və İran arasında əlaqələrdən danışan nazir qeyd edib ki, son illər hər iki ölkənin Prezidentləri 10 dəfə görüşüblər. Azərbaycan Prezidenti İlham Əliyevin Tehrana sonuncu səfəri zamanı iki ölkənin iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının üzərinə mühüm öhdəliklər qoyulub. Məsud Kərbasian İran və Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlıq üçün geniş potensialın olduğunu vurğulayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Məsud Kərbasiani İranın iqtisadi işlər və maliyyə naziri və hökumətlərarası komissiyanın həmsədri vəzifəsinə təyin olunması münasibətilə təbrik edərək deyib: Azərbaycan-İran hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyasının sonuncu iclası Naxçıvanda keçirilib və yekun protokol imzalanıb. Həmin protokolda Naxçıvan Muxtar Respublikası ilə də əlaqələrin inkişafı nəzərdə tutulub. Protokola uyğun olaraq Ordubad-Marazad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir.

İran İslam Respublikası və Naxçıvan Muxtar Respublikası arasında iqtisadi sahədə əlaqələrin yaxşı səviyyədə olduğunu bildirən Ali Məclisin Sədri bu əməkdaşlığın daha da



inkişaf etdirilməsinin zəruriliyindən danışıb. İkitərəfli əlaqələrin müxtəlif sahələrdə davam etdirildiyini vurğulayan Ali Məclisin Sədri İranla elektrik enerjisi mübadiləsinin həcminin və iş adamları arasında əlaqələrin daha da artırılması zəruriliyindən bəhs edib.

Söhbət zamanı Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə İran və onun yaxın vilayətləri arasında imzalanan sənədlər və əldə olunan razılıqlar münasibətlərimizin daha da genişləndirilməsi istiqamətində atılan addım kimi dəyərləndirilib.

* * *

Dekabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun İran İslam Respublikasına rəsmi səfəri başa çatıb.

Tehranın Mehrabad Beynəlxalq Hava Limanında Ali Məclisin Sədrini İran İslam Respublikasının xarici işlər nazirinin müavini Həsən Qaşqavi yola salıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 18 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi haqqında

# ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi (bundan sonra - Agentlik) Naxçıvan Muxtar Respublikasında dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini, dini qurumlarla bağlı qanunvericiliyin müddəalarına riayət olunmasını, müvafiq icra hakimiyyəti orqanlarının dini qurumlarla bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Agentliyin öz səlahiyyətləri daxilində qəbul etdiyi aktlar digər mərkəzi və yerli icra hakimiyyəti orqanları, dini fəaliyyətlə bağlı qurumlar, fiziki və hüquqi şəxslər üçün məcburi xarakter daşıyır və həmin aktların icrasına nəzarət Agentlik tərəfindən həyata keçirilir.

1.3. Agentlik dini qurumlara heç bir maddi yardım göstərmir.

1.4. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.5. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən mərkəzi və yerli icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir, dini işlərlə bağlı onların fəaliyyətini əlaqələndirir.

1.6. Agentliyin müstəqil balansı, sərəncamında olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, müvafiq ştampı və blankı vardır.

1.7. Agentliyin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunvericiliklə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. Agentlik Naxçıvan şəhərində yerləşir.

*Ardı 3-cü səhifədə*

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyət göstərir;

2.1.2. dini etiqad azadlığı sahəsində dövlət siyasətinin formalaşmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

2.1.3. dövlət-din münasibətlərinin tənzimlənməsini və inkişafını təmin edir;

2.1.4. dini etiqad sahəsində maarifləndirmə işi aparır;

2.1.5. dini qurumların dövlət qeydiyyatını həyata keçirir;

2.1.6. öz səlahiyyətləri daxilində dini təhsil ilə bağlı məsələlərin tənzimlənməsində iştirak edir;

2.1.7. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

**3. Agentliyin vəzifələri**

3.1. Agentlik bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. dini etiqad azadlığının həyata keçirilməsi üçün müvafiq şərait yaratmaq;

3.1.2. dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarəti təmin etmək;

3.1.3. dini qurumların qanunvericiliklə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatını həyata keçirmək, dini qurumların dövlət reyestrini aparmaq, dini qurumların dövlət qeydiyyatı haqqında məlumatları kütləvi informasiya vasitələrində dərc etdirmək, dini qurumların təşkilati işlərinin qanunauyğun qurulmasına köməklik göstərmək;

3.1.4. dini qurumların xahişi əsasında dövlət orqanları ilə razılaşmalar əldə edilməsində və dövlət orqanları tərəfindən həlli tələb olunan məsələlərdə dini qurumlara lazımi yardım göstərmək;

3.1.5. dini radikalizmin və ekstremizmin, dini zəmində qarşıdurma və ayrı-seçkilik hallarının, digər mənfi təzahürlərin qarşısını almaq;

3.1.6. dini qurumlardan məlumatlar almaqla ümumi məlumat bankını yaratmaq;

3.1.7. dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının dinşünaslıq ekspertizasının aparılmasını təmin etmək;

3.1.8. yerli icra hakimiyyətləri yanında yaradılmış dini məsələlər üzrə komissiyaların işinin təşkilinə kömək göstərmək;

3.1.9. muxtar respublikada dini durum haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə ildə iki dəfə hesabat təqdim etmək;

3.1.10. qanunvericilikdə nəzərdə tutulmuş əsaslar olduqda dini qurumun ləğv olunması barədə məhkəməyə müraciət etmək;

3.1.11. dini qurumlara münasibətdə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı qanunla nəzərdə tutulmuş qaydada və hallarda nəzarət orqanının funksiyalarını həyata keçirmək;

3.1.12. qanunvericiliklə nəzərdə tutulmuş müvafiq inzibati xətalar haqqında işlərə baxmaq;

3.1.13. vətəndaşların dini təhsil müəssisələrində təhsil almaq üçün xaricə göndərilməsinə razılıq vermək;

3.1.14. dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının istehsalına, idxalına və yayılmasına nəzarət etmək, o cümlədən dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının istehsalına, idxalına, ixracına və yayılmasına, habelə onların satışı üçün ixtisaslaşdırılmış satış məntəqələrinin yaradılmasına razılıq vermək;

3.1.15. dini ibadət yerlərinin tikintisinin və yenidən qurulmasının məqsədəuyğunluğu barədə rəy vermək;

3.1.16. dini qurumların fəaliyyəti ilə bağlı mübahisəli məsələlərin həllində dövlət adından iştirak etmək;

3.1.17. dini təhsil müəssisələrinin fəaliyyətinə lisenziyanın verilməsi üçün rəy vermək, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi ilə birlikdə dini təhsil müəssisələrinin proqramlarını təhlil etmək, tədris plan və proqramlarını təsdiq etmək, dini tədrisin keyfiyyətinin müəyyən edilməsi üçün rəy vermək;

3.1.18. nəzarət markası ilə markalanmış dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının satışı üzrə ixtisaslaşdırılmış satış məntəqələrində yoxlamalar aparmaq, həmin məntəqələrin fəaliyyətində qanun pozuntusu aşkarlandığı təqdirdə, fəaliyyəti dayandırma, məsuliyyətə cəlb etmə ilə bağlı tədbirləri həyata keçirmək;

3.1.19. qanunazidd fəaliyyət göstərən dini qurumların məsuliyyətə cəlb edilməsi üçün tədbirlər (dini fəaliyyətin dayandırılması, dövlət orqanlarına müraciət edilməsi) görmək, ayrı-ayrı şəxslər tərəfindən yaradılan və tarixi-ənənəvi kökü olmayan ibadət və ziyarət yerlərinin fəaliyyəti barədə müvafiq dövlət orqanları qarşısında məsələ qaldırmaq;

3.1.20. dini qurumların fəaliyyət qaydasının pozulması, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən dini təbliğatın aparılması, dini ayinlərin icrasına maneçilik törədilməsi, dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd edilməsi barədə məlumatı tədbir görülməsi üçün hüquq-mühafizə orqanlarına göndərmək və öz nəzarətində saxlamaq;

3.1.21. dini təhsil müəssisələrinin fəaliyyətində aşkarlanmış qanun pozuntuları barədə müvafiq dövlət orqanlarına məlumat vermək;

3.1.22. dini təhsil müəssisələri istisna olmaqla, mülkiyyət formasından asılı olmayaraq bütün təhsil müəssisələrində dinşünaslıq, din tarixi, dini-idraki, dini-fəlsəfi fənlər və müqəddəs dini kitabların əsasları üzrə tədris proqramlarının, tədris vəsaitlərinin hazırlanmasında iştirak etmək və təsdiqinə razılıq vermək;

3.1.23. xarici ölkələrdə yerləşən ziyarətgahlara turlar nəzərdə tutan turizm fəaliyyətinə icazə vermək;

3.1.24. dini mətbu nəşrlərin təsis edilməsi barədə müraciətlərə dair rəy vermək;

3.1.25. islam dininə mənsub din xadimlərinin attestasiyasında iştirak etmək;

3.1.26. ibadət yerlərinə din xadimlərinin, o cümlədən yeni din xadimlərinin təyin olunması barədə aidiyyəti üzrə məsələ qaldırmaq;

3.1.27. nizamnaməsində dini dəyərlərin təbliği ilə bağlı fəaliyyət istiqamətləri olan qeyri-kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatına alınması üçün rəy vermək;

3.1.28. islam dininə aid ayin və mərasimləri aparan şəxslər barədə rəy vermək;

3.1.29. qəbiristanların salınmasının məqsədəuyğunluğu barədə rəy vermək;

3.1.30. dini sahəyə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.31. xaricdəki müqəddəs yerlərə ziyarətin təşkilində, bu məsələlərlə bağlı dövlətlərarası razılaşmaların əldə olunmasında iştirak etmək;

3.1.32. dini maarifçilik işinin genişləndirilməsi, dini qarşıdurmanın qarşısını almaq məqsədilə kütləvi informasiya vasitələri ilə iş sahəsində fəaliyyət göstərən müvafiq qurumlarla birgə tədbirlər həyata keçirmək;

3.1.33. müqəddəs kitabları öyrənmə kurslarının fəaliyyətinə nəzarəti həyata keçirmək, qanunvericiliyə uyğun fəaliyyət göstərməyən müqəddəs kitabları öyrənmə kurslarının fəaliyyətini dayandırmaq;

3.1.34. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;

3.1.35. din sahəsində mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün tədbirlər görmək, ixtisasartırma kurslarını təşkil etmək;

3.1.36. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.37. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək;

3.1.38. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Agentlik öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. dövlət-din münasibətlərinə, din haqqında qanunvericiliyin təkmilləşdirilməsinə dair aidiyyəti üzrə təkliflər vermək;

4.1.2. səlahiyyətlərinə aid edilmiş məsələlərin işlənib hazırlanması və yerinə yetirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada ekspert və məsləhətçiləri cəlb etmək, onlarla müqavilələr bağlamaq;

4.1.3. qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.4. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dini təhsil müəssisələrinin fəaliyyəti barədə məlumatlar və hesabatlar almaq, dini təhsil müəssisələrində dini təhsillə bağlı yoxlamalar aparmaq;

4.1.5. dini təfriqə, məzhəb ayrı-seçkiliyi, milli təhlükəsizliyə zidd dini-siyasi təxribatlar və digər qeyri-qanuni dini fəaliyyətlə bağlı hərəkətlər və hallar barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mütəmadi olaraq məlumat vermək, bu barədə əlaqədar dövlət orqanları qarşısında məsələ qaldırmaq;

4.1.6. dini qurumların, eyni zamanda ayrı-ayrı şəxslərin dini etiqad azadlığı ilə bağlı qanunvericiliyə zidd hərəkətləri barədə onların təmsil olunduqları dini mərkəz qarşısında məsələ qaldırmaq;

4.1.7. dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarının tələblərinə riayət olunmasını təmin etmək məqsədilə əsas olduğu təqdirdə qanunla nəzərdə tutulmuş qaydada dini qurumların fəaliyyətinə müdaxilə etmək və onlardan dini fəaliyyətə dair hesabat tələb etmək;

4.1.8. nəzarət markası ilə markalanmış dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının satışı üzrə ixtisaslaşdırılmış satış məntəqələrinin fəaliyyəti barədə məlumatlar almaq;

4.1.9. dini təhsil müəssisələrinə tələbə qəbulu məqsədi ilə yaradılmış dini komissiyaların fəaliyyətində iştirak etmək;

4.1.10. öz səlahiyyətləri daxilində dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.11. dini qurumların fəaliyyəti ilə bağlı mübahisəli məsələlərin qanun çərçivəsində tənzimlənməsində iştirak etmək, yaranmış problemlərin həlli barədə müvafiq dövlət orqanları qarşısında vəsatət qaldırmaq;

4.1.12. dini ayinlərin icrası ilə əlaqədar vətəndaşların və dini qurumların hüquqlarının qorunması məsələsinin dövlət orqanları tərəfindən müzakirə olunmasında iştirak etmək;

4.1.13. səlahiyyətlərinə aid məsələlər üzrə metodik və təlimat xarakterli göstərişlər, məsləhət və izahlar vermək;

4.1.14. dini icmalardan dövlət qeydiyyatı və digər məsələlərlə bağlı müvafiq sənədləri tələb etmək;

4.1.15. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, təkliflər vermək;

4.1.16. dini maarifləndirmə işi aparmaq, dövlət-din münasibətləri və bu sahədə digər məsələlər barədə əhalini məlumatlandırmaq məqsədilə qanunvericiliyə uyğun olaraq televiziya və radio yayımı kanallarından, digər kütləvi informasiya vasitələrindən istifadə etmək;

4.1.17. dövlət-din münasibətlərinin tənzimlənməsi və müvafiq qanunvericiliyin icrasına nəzarətin həyata keçirilməsi ilə bağlı vaxtaşırı müşavirələr keçirmək;

4.1.18. müvafiq beynəlxalq tədbirlərdə müəyyən edilmiş qaydada iştirak etmək və öz səlahiyyətləri çərçivəsində Naxçıvan Muxtar Respublikasını təmsil etmək;

4.1.19. yerlərdə dini durumu öyrənmək üçün yerli icra hakimiyyəti orqanları ilə mütəmadi əlaqələr saxlamaq;

4.1.20. islam dininə aid ibadət yerlərinin rəhbərliyinə təyin edilən din xadimləri barədə aidiyyəti üzrə məlumat almaq;

4.1.21. dövlət-din münasibətləri sahəsində məqsədli proqramlar hazırlamaq və həyata keçirmək;

4.1.22. qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentliyin fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Direktor Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.2. Agentliyin strukturu və işçilərinin say həddi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən müəyyən edilir.

5.3. Agentliyin direktorunun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən müavini vardır. Agentliyin direktorunun müavini Agentliyin direktoru tərəfindən ona həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Agentliyin direktoru:

5.4.1. Agentliyin fəaliyyətini təşkil edir;

5.4.2. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını, Agentliyin aparatının struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

5.4.3. qanunvericiliyə uyğun olaraq icrası məcburi olan əmr və sərəncamlar verir, normativ-hüquqi aktları təsdiq edir (imzalayır), onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

5.4.4. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.4.5. Agentliyi vəkalətnaməsiz təmsil edir;

5.4.6. Agentliyin işçilərini qanunvericiliyə müvafiq olaraq vəzifəyə təyin edir və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirlərini tətbiq edir;

5.4.7. Agentliyin fəaliyyəti barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə mütəmadi olaraq hesabatlar və məlumatlar verir;

5.4.8. Agentliyin maliyyə vəsaitləri və əmlakı barəsində sərəncam verir;

5.4.9. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

5.5. Agentlikdə Agentliyin direktorundan (kollegiyanın sədri), onun müavinindən, habelə Agentliyin digər rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Kollegiya üzvlərinin sayı və tərkibi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.6. Agentliyin kollegiyası öz iclaslarında Agentliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir. Kollegiyanın iclasları kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Kollegiyanın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Agentliyin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.7. Agentliyin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda Agentliyin direktoru bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verərək öz qərarını həyata keçirir. Kollegiyanın üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.8. Zəruri hallarda Kollegiyanın iclaslarında iştirak etmək üçün müzakirə olunan məsələlərlə bilavasitə əlaqəli olan icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının, habelə dini qurumların nümayəndələri dəvət edilə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 18 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin STRUKTURU

Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin Aparatı (şöbələr və sektorlar).

## Xalq artisti, görkəmli bəstəkar Nəriman Məmmədovun 90 illik yubileyi qeyd edilib





***Dekabrın 19-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Azərbaycan Respublikasının Xalq artisti, görkəmli bəstəkar Nəriman Məmmədovun 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.***

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova tədbirdə çıxış edərək bildirib ki, Naxçıvan musiqi mədəniyyətinin yetirdiyi görkəmli simalardan biri də Azərbaycan Respublikasının Xalq artisti Nəriman Məmmədovdur. O, 1928-ci il dekabrın 28-də Naxçıvan şəhərində anadan olub. İlk musiqi təhsilini Naxçıvanda alan bəstəkar Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunu bitirib, bu illərdə ilk "Süita"sını bəstələyib. Süita ilk dəfə görkəmli bəstəkar və dirijor Səid Rüstəmovun rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrinin ifasında səslənib.

Qeyd olunub ki, Azərbaycan Dövlət Konservatoriyasını uğurla bitirən Nəriman Məmmədov 7 simfoniyanın, bir neçə süitanın, "Azərbaycan" oratoriyasının və üç kantatanın, musiqili komediyaların, eyni zamanda "Humay" və "Şeyx Sənan" baletlərinin müəllifidir.

Vurğulanıb ki, Nəriman Məmmədovun yaradıcılığında mahnı və romans janrları mühüm yer tutur. Yaradıcılığında qədim Naxçıvanımızı da vəsf edən məşhur bəstəkarın 700-dən çox mahnısı görkəmli müğənni və xanəndələrimizin repertuarlarını bəzəyib. Həmin mahnılar bu gün də sevilə-sevilə oxunmaqdadır.

Diqqətə çatdırılıb ki, Nəriman Məmmədov Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulan 10-dan çox tamaşaya, o cümlədən "Günəş", "Yarımçıq şəkil", "Məhəbbət abidəsi", "Haray səsi", "Əgər sevirsənsə" və başqa tamaşalara musiqilər bəstələyib. O, Naxçıvan Muxtar Respublikasının və Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycan Respublikasının Xalq artisti fəxri adlarına layiq görülüb. Prezident təqaüdçüsü olan Nəriman Məmmədov 2015-ci il aprelin 6-da Bakı şəhərində vəfat edib və II Fəxri xiyabanda dəfn edilib.

Görkəmli bəstəkarın yaradıcılığı musiqişünaslar tərəfindən geniş tədqiq edilib, haqqında monoqrafiyalar yazılıb, çoxsaylı məqalələr mətbuatda çap olunub.

Qeyd olunub ki, musiqimizin yorulmaz təbliğatçısı və tədqiqatçısı Nəriman Məmmədovun musiqisi bundan sonra da insanların qəlbində gözəllik və sabaha inam hissləri oyatmaqla onların estetik və mənəvi tərbiyəsində əhəmiyyətli rol oynayacaqdır. Görkəmli bəstəkarın milli musiqimizin inkişafındakı xidmətləri həmişə xatırlanacaq, xatirəsi qəlblərdə yaşayacaqdır.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Əməkdar incəsənət xadimi Yaşar Xəlilov "Nəriman Məmmədovun həyatı və yaradıcılığı" mövzusunda çıxışında deyib ki, bəstəkar uzun illər Naxçıvan Musiqi Texnikumunda buraxılış imtahanlarında iştirak edib, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının işi ilə yaxından maraqlanıb, konfranslarda, hesabat konsertlərində olub, öz fikirlərini bəstəkar və musiqişünaslarla bölüşüb, dəyərli məsləhətlər verib. Onun sənətə qarşı yüksək məsuliyyəti, fədakarlığı həmişə bizim üçün nümunə olacaqdır. Bəstəkarın gözəl və dəyərli əsərləri könüllərdə, əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Azərbaycan Respublikasının Xalq artisti, "Şöhrət" ordeni, professor Tofiq Bakıxanov sənət və yaradıcılıq dostu Nəriman Məmmədov haqqında xatirələrindən söhbət açıb. Görkəmli bəstəkar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə minnətdarlıq edərək bildirib ki, belə yubileylərin keçirilməsi qədim diyarda musiqi sənətinə və sənət adamlarına göstərilən böyük diqqət və qayğının bariz nümunəsidir.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının, Xalq Çalğı Alətləri Orkestrinin ifasında bəstəkarın əsərləri səsləndirilib. Xalq çalğı alətləri orkestrinə Samir Əsgərov dirijorluq edib. Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Xatirə Səfərova, Qəribə Həsənova və digərləri bəstəkarın "Azərbaycan", "Darıxmışam", "Sevən ürək" , "Yar söz desin", "Üzmə amandır", "Səsini eşidirəm mən", "Ulduzun olaydım" mahnılarını ifa ediblər.

**Əli RZAYEV**

## Yüngül atletika üzrə qaliblər müəyyənləşib

Culfa rayonunun Əbrəqunus kənd və Culfa şəhər 3 nömrəli tam orta məktəblərində keçirilən rayon ümumtəhsil məktəblərinin VIII-XI sinif şagirdləri arasında yüngül atletikanın hündürlüyə tullanma növü üzrə rayon birinciliyi başa çatıb.

Birincilik Culfa Rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının Gənclər Birliyi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının Culfa rayon bölməsinin təşkilatçılığı ilə keçirilib.

İki yarımqrup üzrə keçirilən yarışda hər qrupda 6, ümumilikdə, 12 komanda (hər komandanın heyətində 3 oğlan və 3 qız iştirakçı olmaqla), 72 yeniyetmə bu turnirin iştirakçısı olub.

Final mərhələsində Əbrəqunus kənd tam orta məktəbinin komandası birinci yerə layiq görülüb. Culfa şəhər 3 nömrəli tam orta məktəbin komandası ikinci, Culfa şəhər 1 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

## Rayon birinciliyi keçirilib

Ordubad şəhər 3 nömrəli tam orta məktəbin idman zalında rayon Gənclər və İdman İdarəsi, Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının Ordubad rayon bölməsi və Təhsil Şöbəsinin təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında oğlanlardan ibarət basketbol komandaları arasında rayon birinciliyi keçirilib.

Birincilikdə 7 komandadan 62 nəfər iştirak edib. İki gün davam edən yarışın yekun nəticələrinə görə Ordubad şəhər 3 nömrəli tam orta məktəbin komandası birinci yerə layiq görülüb. Gənzə kənd tam orta məktəbin komandası ikinci, Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbinin komandası isə üçüncü olub.

## Futbol üzrə yoldaşlıq görüşü



Naxçıvan Muxtar Respublika Stadionunda 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə "Araz-Naxçıvan" Peşəkar Futbol Klubunun və Şərur Rayon Uşaq-gənclər idman məktəbinin 11-13 yaşlı yeniyetmələrindən ibarət komandaları arasında futbol üzrə yoldaşlıq görüşü keçirilib.

Uşaq futbolunun müəyyən edilmiş qaydalarına əsasən təşkil edilən yoldaşlıq görüşü 4:2 hesabı ilə "Araz-Naxçıvan" PFK-nın qələbəsi ilə başa çatıb.

Sonda hər iki komandaya Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkil etdiyi görüşün məqsədi muxtar respublikada uşaq futbolunu inkişaf etdirmək, istedadlı uşaqları üzə çıxarmaqdır.

**Ceyhun MƏMMƏDOV**

*Xalq təqvimi*

## İlin ən uzun gecəsi – *Çillə gecəsi*

*Hər hansı bir xalqın tarixi keçmişinin, xüsusən mənəvi mədəniyyətinin öyrənilməsində təqvimlə bağlı adətlər və mərasimlər mühüm əhəmiyyət kəsb edir. Bunlar arasında qış adət və mərasimləri xüsusi yer tutur.*

Çillə gecəsi qışın başlandığı gün kimi qeyd olunur, dekabrın 20-nə, yaxud 21-nə təsadüf edir. Çillə gecəsinə gələn yola qısa nəzər salsaq görərik ki, əslində, qışa ilk hazırlıq tədbirləri el arasında "Qoçqarışan" (oktyabr ayına təsadüf edir) deyilən vaxtdan başlayır. Havalar yavaş-yavaş soyuyur, uca dağlara ilk qar düşür. Bu, "Qoç boranı" adlanır. Hazırda "Qoçqarışan" nənə-babalarımızın vaxtındakı kimi çox geniş şəkildə, təntənə ilə qeyd edilməsə də, bəzi yerlərdə yenə də həmin gün əvvəlcədən seçilmiş və müəyyənləşmiş qoçlar bəzədilir və sürüyə buraxılır. Camaat çobanın görüşünə gedir, o isə çələvərdə – daş üstündə bişirdiyi fətirlə onları qarşılayır. Qoçları bəsləyən çobanlara hədiyyələr verilir. Qoçun bu dövrdə sürüyə qatılması dölün yazın əvvəllərində başlanmasına səbəb olur, doğulmuş quzular şaxta və borana düşmür. Onların ağzı ota dəyənə, yəni ot yeyənə qədər isə hər tərəf yaşıllığa bürünür.

Hələ də bəzi kəndlərimizdə "Qoçqarışan"da qışın necə olacağını təyin etmək adəti də qalır. Bu zaman qoç sürüdən kənarda saxlanılır və müşahidə aparılır: əgər sürüdən ağ qoyun ayrılıb gəlsə, qış qarlı, ala qoyun gəlsə, az qarlı, qara qoyun gəlsə, qarsız olacaq inamı vardır.

### *"Naxırqoyan"*

Qışla bağlı təqvimdə "Naxırqoyan" da var ki, bu mərasim payızın son həftələrində qaramalın tövləyə qatılması, otlağa buraxılmaması ilə başlayır. "Naxırqoyan" torpağın yavaş-yavaş donmasına təsadüf edir. Buna qədər hamı çalışır ki, qış hazırlığını başa çatdırsın: qovurma, yağ, pendir, əriştə, yarma, müxtəlif çərəzlərlə yanaşı, təndir-ocaq üçün yanacaq, mal-heyvan üçün yem tədarükü görsün. Belə olan halda ailə qışda heç bir çətinliklə rastlaşmaz. Soyuqlar ki düşdü, kənd yerlərində təsərrüfat işləri sona çatır və ailədə əsas qüvvə sayılan kişilərin qış istirahəti başlanır. Qohum-qonşular, doğmalar, əzizlər bir yerə yığılar, isti sobanın ətrafında umaclı, ələyəzli, əvəlikli aş yeyər, pürrəngi çay içə-içə keçmişdən, gələcəkdən danışarlar. Qadınlar da ki, boş vaxtlarını xalça, palaz, cecim, kilim toxumağa sərf edərlər. Ustad Şəhriyar demişkən:

*Qış gecəsi tövlələrin otağı,*
*Kəndlilərin oturağı, yatağı,*
*Buxarıda yanar odun yanağı,*
*Kəndi basar gülüb-danışmaq səsi...*

Xalqımızın ən qədim bayramı olan Novruz kimi, Çillə gecəsi də ulu elimizin yaddaşında, məişətimizdə, adət-ənənələrimizdə əzizlənə-əzizlənə, sevilə-sevilə qorunaraq bu günümüzə gəlib çatmışdır.

Çillə gecəsi bayramında tonqallar qalanar, uşaqlı-böyüklü hamı tonqalın ətrafına toplaşıb şadlıq edər, odun üstündən tullanarlar. Həmin gün nişanlı qızlar, təzə gəlinlər hasar dalından boylanaraq Çillə payı gözləyərlər. Gözlər ata ocağına dikilər. Bir əlində Çillə qarpızı, o biri əlində şirinli-şəkərli bağlama tutmuş oğlan evinin adamları nişanlı qıza, ata ocağının adamları isə təzə gəlinə Çillə payı aparırlar. Neçə-neçə ocağa şadlıq qonar, qız-gəlinlər nəğmə deyərək Çilləni salamlayarlar. Sinədəftər sandıqçalı nənələr nə vaxtsa onlara gətirilən ilk Çillə sovqatını yada salıb kövrələr, uşaqlar sevincindən atılıb-düşərlər.



Göründüyü kimi, dünyanın bir sıra xalqlarından fərqli olaraq, Azərbaycanda qış ta qədimdən daha təntənəli qarşılanmışdır. Qışın ilk axşamı olan Çillə gecəsi üçün əvvəlcədən hazırlıq görülür, hələ payızın orta ayından Çillə qarpızı seçilib, küləşin içində saxlanılır. İnanclara görə qarpız bolluq, yaşıllıq rəmzidir. Yəni yaz-yay aylarında yığıb-yığışdırdıqlarına, tədarük gördüklərinə görə qış bolluqla qarşılayar və yaşıl yazı səbirsizliklə gözləyərlər. Qarpızı Günəşin atributu hesab edənlər də var. Qeyd olunduğu kimi, Çillə gecəsi nişanlı qızlara, təzə gəlinlərə, yaxın qohumlara aparılan ən əziz sovqat Çillə qarpızıdır:

*Bu qarpız, Çillə qarpız,*
*Düşübdü dilə qarpız,*
*Yığılıb xurcunlara,*
*Gəlib yargilə qarpız.*

*Bu qarpız, ala qarpız,*
*Bürünüb şala qarpız,*
*Qoy bolluq olsun, gərək*
*Novruza qala qarpız.*

### *Ənənəvi qış evləri*

Vaxtilə "Qara dam", "Külfət evi", "Təndir evi", "Əvdamı" deyilən xüsusi qış evləri olardı. Həmin evlər çillələrə qədər, əsasən, keçə xalçalarla döşənib hazırlanar, mütəkkələr, döşəkçələr, yastıqlar düzülərdi. Evin ortasındakı təndirin üzərində kürsü qurulardı.

### *Çillələr "bacı"dırlar*

Digər fəsillərə aid tam bölgü olmasa da, qışın bölgü sistemi məlumdur. Qədim xalq adətlərinə görə, qış aylara deyil, çillələrə bölünür. Qışın birinci qırx günü Böyük Çillə, sonrakı iyirmi günü Kiçik Çillə, axırıncı bir ayı Çilləbeçə adlanır. Çilləbeçəyə "Boz ay" da deyirlər. Belə rəvayət eləyirlər ki, çillələr bacıdırlar. Böyük Çillə deyir: "Malqaranı tövləyə qatacam, suların üzünü donduracam, qış ruzisinin bir hissəsini işlədəcəm". Kiçik Çillə deyir: "Mən çayları dibindən donduracam, tayaları söküb-dağıdacam, küplərdən yağı, qovurmanı, unluqlardan unu silib-süpürəcəm. Amma heyif ki, ömrüm azdır". Çilləbeçə isə deyir ki, mən bayram ayıyam. Bu ayda bənövşələr, novruzgülləri açacaq, qaranquşlar, durnalar, leyləklər gələcək.

Artıq tayaları töküb-dağıdan, küpə-gülövüzün dibinə əl atan, unluqları boşaldan, çöllərə, zəmilərə bolluq, bərəkət qarı gətirən, isti kürsülü, nağıllı, meyli-məzəli, iydəlimövüclü, bəyaz donlu, ayazlı qışın pişvazına çıxmışıq. Nə qədər sərt olsa da, qışdan qorxumuz yoxdur. Ulular demişkən, üzü yazadır. Gəlin qışı hörmətlə qarşılayıb, uğurla yola salaq. Bundan sonra hər birimizi al Günəşli, bənövşəli-nərgizli Novruz gözləyir. Çillə bayramı, payızın son, qışınsa ilk gecəsi gəlir. Süfrənizə bolluq, yaşıllıq rəmzi olan qarpız qoyun. Qoy evin ağsaqqalı, ağbirçəyi Çillə qarpızını kəssin, hamıya ağız şirinliyi, könül xoşluğu arzulasın. Gəlin qışı ayın-şayın qarşılayıb, uğurla da yola salaq. Buludunuz yağar, suyunuz axar, ocağınız yanar, arzularınız çin, Çillə bayramınız mübarək olsun.

**Ramiyyə ƏKBƏROVA**

***İtmişdir***

Babək rayonu, Babək qəsəbəsi, Qoşadizə məhəllə sakini Nağıyev Sərdar Hüseyn oğluna məxsus JN-107 inventar nömrəli Torpaq mülkiyyətinin hüququna dair Dövlət Aktı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1031